Emil Aslanov

# *İKİNCİ ŞANS*

Sevgi, Ailə və Dostluq

qanun nəşriyyatı

**Emil Aslanov “İkinci Şans”**
Bakı, Qanun Nəşriyyatı, 2024, 216 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 02.07.2024

| | |
|---|---|
| Redaktor: | Əsəd Qaraqaplan |
| Korrektor: | Əyyar Tahir |
| İllüstrator: | Manaf Gülmalıyev |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Sabina Aydın |
| Qapaq dizaynı: | Pərviz Ələkbərli |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-982-1

© Qanun Nəşriyyatı, 2024
© Emil Aslanov, 2024

Kitabın hər hansı hissəsinin müəllifin razılığı olmadan tam və ya hissə-hissə nəşr olunması, həmçinin hər hansı kütləvi informasiya vasitələri ilə yayılması “Müəlliflik hüququ və digər əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

ABŞ-ın müasir ştatlarından biri və heç vaxt yatmayan şəhəri Nyu-Yorkun mərkəzi Menhettendə iki yaxın dost Kris və Kemstokun həyatında hər şey normal davam edir. Ta ki, Krisin illər əvvəl etdiyi səhv onu tapana qədər. Onun oğlu və oğlunun ən yaxın dostu Culinin olacaqlardan heç xəbərləri belə yoxdur. Dostu Braunun anasının vəfatı ilə maraqlanan Mark heç özü də bilmədən, illərdir tapılmağı gözləyən həqiqətlərə işıq salır. Bəlli ki, onun bu sirləri açığa çıxarmasından ehtiyatlanan bəziləri buna imkan verməyəcək. Görəsən, gec-tez o, bəzi həqiqətləri öyrənə biləcəkmi? Culinin onu ən başdan bəri sevdiyini? Atasının illər əvvəl birini öldürdüyünü necə? Kaliforniyadan Nyu-Yorka qədər uzanan bu hekayədə hamının İkinci bir Şansa ehtiyacı var. Amma bir deyim də vardır ki, həyat bunu heç də hamıya vermir...

*Bəzən ehtiyacınız olan tək şey ikinci bir şans olur,*
*çünki sonradan bilirsiniz ki,*
*zaman birincisi üçün hazır deyilmiş.*

*Kim olduğunuzun bir əhəmiyyəti yoxdur, amma bu kitabı əlinizdə tutursunuzsa və mənim dünyama daxil olmağı seçmisinizsə, "Xoş gəlmişsiniz".*
*Dəstəyinizə görə minnətdaram.*

*Əvvəlcə bu kitabı yazmaqda köməklərini əsirgəmədiyinə görə dəyərli dostlarıma təşəkkür edirəm. Siz olmasanız, bu kitab da olmazdı…*

*Anama ithaf olunur…*
*11.06.1979 - ∞*

## *Ön Söz*

*"İçinizdəki hekayəni kiməsə danışmamaqdan daha əziyyətli bir şey yoxdur".*
*(Maya Angelou)*

**Əziz oxucularıma**

Bilirəm, ön sözləri mən də o qədər çox sevmirəm, amma əsərlə oxucular arasında tanışlıq yaradılması üçün, sanıram ki, bu zəruridir.

Kitab yazmaq çox fərqli bir duyğudur. Öncə obrazları yaratmaq, daha sonra onların talelərini müəyyən edib süjeti cızmaq. Bunlar hamısı geniş əhalisi olan bir ölkəni idarə etməyə bənzəyir, çünki məhz onların başına gələcək hadisələri sizin qələminiz müəyyən edir. Amma bir an olsun qayğıları və problemləri ilə bizi yoran bu həyatdan uzaqlaşıb öz hekayəmi sizlərə danışmaq tam başqa bir hiss olaraq qəlbimə kök salıb. Mussonun təbirincə desək, bəlkə də, yazıçılığın üstünlüyü bundadır, həqiqəti öz reallığın kimi redaktə edə bilməkdə. Hər bir halda bu hekayə yenidən oxuduğum zaman mənim də ürəyimi lərzəyə gətirir və ümid edirəm ki, ən dərin duyğularla qələmə aldığım bu əsəri mütaliə zamanı siz də xoş hisslər keçirəcəksiniz.

Sizinlə bölüşdüyüm bu hekayədəki Nyu-York, North American Blizzard, Orange Cage və s. kimi əksər məkan-

lar və hadisələr real həyatdan olsa da, onlar yenə də müəyyən qədər dəyişilmiş, əsərə uyğunlaşdırılaraq qələmə alınmışdır. İkincisi, bu əsərdə olan personajlar və hadisələr tərəfimdən uydurulmuşdur və onların gerçək həyatla əlaqəsi olmadığına tam şəkildə əmin ola bilərsiniz.

Son olaraq isə bu işə yeni başlamış biri kimi bu kitabın müəyyən səhvlərdən uzaq olmadığı da nəzərimdədir. Ona görə də əsər haqqında fikir, tövsiyə və məsləhətlərinizi dinləmək mənim üçün çox xoş olardı. Əlaqə məlumatlarım vasitəsilə fikirlərinizi bölüşməkdən çəkinməyin. Xoş mütaliələr…

*Emil Aslanov*

Sevgisinin yolundan dönməyən, inadkarcasına sevən sadiq sevgililərə…

# *Proloq*

## Gecə

*“Gecələr hamımız yad oluruq, hətta özümüzə belə”.*

***(Alexander M. Smith)***

**ABŞ, Nyu-York ştatı, Menhetten 06.01.1996**

– Yaxşı, yaxşı, narahat olma, on beş dəqiqəyə oradayam, anacan, atama da de, gələndə öyrənərsiniz, – anam həmişə belə idi, hətta elə dünən məni görsə də, bu gün də zəng edər, daim hal-əhval tutardı. Ana ürəyi dedikləri budur elə... Nəhayət, altı dəqiqəlik danışıqdan sonra telefonumu söndürüb yola baxdım.

Şəhər tamamilə ağ örtüyə bürünmüşdü. Küçələr bir anlığa Buzlar ölkəsini xatırladırdı. Traybekadakı qırmızı binaların blokları üstündən nizəyəoxşar buz salxımları sallanırdı. Nyu-York son günlər tarixdə ikinci ən böyük çovğunu ilə üz-üzə qalmışdı. Birincisinin 1993-cü ildə olduğu yadıma gəlirdi, onda məktəbdə oxuyan zaman bütün məktəblər, yollar bir müddətlik bağlanmış, bir sözlə, şəhərdə hərəkət iflic olmuşdu. Dünən və bu gün qulaq asdığım xəbərlərdən isə o nəticəyə gəlirdim ki, bu çovğun da elə üç il qabaq olmuş həmkarından fərqlənməyəcək və elə də oldu. Yerli mənbələrdən, hətta Mərkəzi Parkda qarın iyirmi inçi (~50 sm) keçdiyi bildi-

rildi, sonra isə yavaş-yavaş lokdaunlar həyata keçirildi. İndi isə vacib olmasa, heç kim evdən çıxmaq barədə fikirləşmirdi. Hətta maşınımdakı kondisioner belə maksimum həddə işlədiyinə baxmayaraq, vəzifəsini tam yerinə yetirə bilmirdi. Bu üçüncü generasiya Ford Taurus SHO avtomobilimi daha keçən il almışdım. Bu firmanın yeni təqdim etdiyi bu model tezliklə ABŞ-da böyük populyarlıq qazandı və təbii ki, mən də bu ikonik maşını bəyənənlər sırasında idim. Saatıma baxdım. 10:09 p.m. Bir azdan evə çatacağım və bu xoş xəbərləri ailəmlə bölüşəcəyim anı gözləyirdim. Bir az başımı qatmaq üçün radionu qoşdum:

Bu çovğun digərləri ilə eyni deyil. Gulf tərəfdən əmələ gələn siklon nor`isterdir. Temperaturun gün ərzinə mənfi on birə, gecə isə mənfi on altıya düşəcəyi gözlənilir. Şəhər bələdiyyəsi əhalinin təhlükəsizliyi üçün onlardan mümkün olduğunca evlərində qalmağı xahiş edir.

Mərkəzi Hospitaldan aldığımız məlumata görə, Steyten Aylenddə beş yaşlı uşaq atasının qar üfürənlə üstündən keçməsi nəticəsində ağır xəsarət alıb.

Radionu çevirdim, eləcə bəd xəbər yağırdı. Onsuz da bu çovğundan müsbət nəticə gözləmək mümkün deyildi ki. Dövrə uyğun eksklüziv musiqilər verən bir frekans tutdum. Tam da vaxtına və yerinə düşən bir mahnı. “Abba”-nın “Happy New Year”-ü oxuyurdu. Elə bütün uşaqlığımı və ailəmlə birgə keçirdiyim bütün xatirələrimi yada salan nostaljik bir şedevr. Bəxtimdən hələ mahnı başlanğıcdakı arpejlərdə idi. Maqnitofona səs verdim və bir an bütün yaxşı şeyləri ağlıma gətirib beynimin serotonin ifraz etməsinə icazə verərək gülümsədim. Hə-